# Medalçı məzunlarla görüş

Qəbələ Rayon Təhsil Şöbəsində 2018-2019-cu tədris ilini qızıl və gümüş medallarla başa vurmuş tam orta məktəb məzunları ilə görüş keçirilib.



Tədbir başlamazdan öncə rayon təhsil şöbəsinin məsul işçiləri, medala layiq görülmüş məzunlar və onların valideynləri Qəbələ şəhərinin mərkəzində yerləşən, ulu öndər Heydər Əliyevin adını daşıyan parka gəlmiş, ümummilli liderin burada ucalan abidəsi önünə gül-çiçək dəstələri qoymuş, dahi rəhbərin xatirəsinə ehtiramlarını nümayiş etdirmişlər.



Rayon təhsil şöbəsində davam edən tədbiri şöbə müdiri Arifə Bayramova giriş sözü ilə açmış, ötən təhsil ilində Qəbələ ümumtəhsil məktəblərində əldə olunan uğurlardan danışmışdır.

Sonra rayonun tam orta məktəblərini 2018-2019-cu dərs ilində qızıl və gümüş medallarla başa vurmuş məzunlara medallar və tam orta təhsil haqqında attestatlar təqdim olunmuşdur.

Məzunlar və onların valideynləri ölkəmizdə təhsilin inkişafına göstərilən yüksək qayğıya görə ölkə Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

Qeyd etmək lazımdır ki, tam orta məktəbləri qızıl və gümüş medallarla başa vurmuş məzunlar ali məktəblərə qəbul imtahanlarında da yüksək göstəricilər əldə etmişlər.

Qızıl medalla təltif olunmuş şəhər 4 nömrəli tam orta məktəbin məzunu Səfərəliyeva Jalə Müşfiq qızı 675 balla Bakı Dövlə Universitetinin hüquq fakultəsinə, Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin məzunu Panahlı Sona Sənan qızı Bakı Ali Neft Məktəbinin proseslərin avtomatlaşdırılması fakultəsinə (tədris ingilis dilində). Mıxlıqovaq kənd tam orta məktəbin məzunu İsmayılov Röyal İlqar oğlu 631 balla Bakı İqtisad Universitetinin iqtisadiyyatın təşkili fakultəsinə (tədris ingilis dilində). Həmzəlli kənd tam orta məktəbin məzunu Tahirova Turac Eldar qızı 645 balla Bakı İqtisad Universitetinin maliyyə işinin təşkili fakultəsinə (tədris ingilis dilində), gümüş medalla təltif olunmuş Qəbələ şəhər 5 nömrəli tam orta məktəbin məzunu Gözəlov Asif Vasif oğlu 558 balla Azərbaycan Respublikası Prezidenti yanında İdarəçilik Akademiyasının menecment fakultəsinə qəbul olunmuşlar.

**«Qəbələ»**

**Səhrab Umuyev (foto).**

# Diplom verilib

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin məzunlarına diplom verilib.




Peşə Tədris Mərkəzindən müxbirimizə bildirilib ki, 2018-2019-cu tədris ilində təhsil müəssisəsini 12 qrup üzrə 208 tələbə bitirib. Tələbələrə diplomları təqdim edən Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Fikrət Nəbiyev onlara öz tövsiyələrini verib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

**“Qəbələ”**

# İntellektual bilik yarışması

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə şəhər 1 nömrəli tam orta məktəbində bilik yarışı keçirilmişdir. Yarışda Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin və Qəbələ Regional “Asan xidmət” Mərkəzinin könüllüləri, şəhər 1 nömrəli tam orta məktəbin XI sinif şagirdləri iştirak etmişlər. Hər birində 24 nəfər olmaqla 4 komanda yarışmışdır.

Yarış iştirakçılarına müxtəlif sahələrə dair 30 sual təqdim olunmuşdur.

Qalib komandaya Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən hazırlanmış sertifikat verilmişdir.

**“Qəbələ”**

# Azərbaycan dili və əlifbası günü qeyd edilib

Avqust ayının əvvəllərindən başlayaraq rayonun mədəni-maarif müəssisələrində Azərbaycan dili və əlifbası günü ilə əlaqədar tədbirlər təşkil edilib.

Tədbirlərdə Azərbaycan əlifbası və dili günü haqqında məlumatlar verilib, ümummilli lider Heydər Əliyevin imzaladığı 9 avqust 2001-ci il tarixli Fərmanla hər il avqustun 1-nin ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edildiyi bildirilib.

Vurğulanıb ki, ölkəmizdə dil siyasətinin formalaşdırılması, Azərbaycan dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

**“Qəbələ”**

# Yay gəzintisi maraqlı olub

Qəbələ rayonunda Ağcabədidə yaşayan sağlamlıq imkanları məhdud uşaqların yay gəzintisi təşkil edilib. Yay gəzintisində əsas məqsəd sağlamlıq imkanları məhdud olan bu uşaqları rayonumuzun tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri ilə tanış etmək olmuşdur.

Uşaqlar bir həftə ərzində “Qəbələnd” Əyləncə Mərkəzinə, Nohurgölə, Qəmərvan kəndinə və rayonun digər görməli yerlərinə səyahət edib, çay kənarında, dağ ətəklərində və meşələrdə gəziblər.

**“Qəbələ”**



# Maarifləndirici tədbir

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Şimal-Qərb Regional Mərkəzinin əməkdaşları fövqəladə halların qarşısının alınması və bu cür hallar baş verdikdə əhalinin davranış qaydaları ilə əlaqədar müntəzəm olaraq maarifləndirmə tədbirləri həyata keçirirlər. İdarənin əməkdaşları eyni zamanda “Qəbələ” qəzetinin səhifələrində də qeyd edilən mövzu ilə əlaqədar vaxtaşırı çıxış edirlər. Bu günlərdə FHN Şimal-Qərb Regional Mərkəzinin sektor müdiri Qoşqar Əzizov və ərazi idarəetmə orqanları ilə iş şöbəsinin baş zabiti Anar Mustafayev redaksiyamızda olmuşlar. Qoşqar Əzizov idarənin keçirdiyi tədbirləri müntəzəm olaraq işıqlandırdığına görə qəzetin kollektivinə təşəkkür etmişdir. O, eyni zamanda bildirmişdir ki, kütləvi informasiya vasitələri əhalinin çox müraciət etdiyi sahədir. Ona görə də “Qəbələ” qəzeti də rayonumuzun yeganə yerli kütləvi informasiya vasitəsi kimi fövqəladə halların qarşısının alınması üçün maarifləndirmə işində daha fəal iştirak edə bilər. Məsələn: bəzi fermerlər, torpaq sahibi olan fiziki şəxslər taxıl biçinindən sonra küləş sahəsinin yandırılmasını ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbiri kimi başa düşürlər. Əslində yanğın hadisəsi torpağın üst qatını, yəni bitki üçün lazım olan əsas hissəsini yandırır, yanğının meşələrə, bağlara, yaşayış sahələrinə düşmək təhlükəsi yaradır. Qəzetin bununla əlaqədar vaxtaşırı mütəxəssis rəyi dərc etməsi müsbət nəticə verərdi.

Məlumdur ki, Qəbələ yay aylarında qonaqların daha çox gəldiyi məkanlardandır. Qonaqlar və yerli əhalinin böyük hissəsi yayda meşələrə daha çox üz tutur, orada müəyyən məqsəd üçün tonqal qalayırlar. Qəzetdə belə hallarda ehtiyatlı olmağı tövsiyyə edən yazı və elanların da daha çox dərc olunması arzu ediləndir.

“Qəbələ” qəzetinin məsul katibi Qüdrət Səmədov çıxışında bildirib ki, FHN-in Şimal-Qərb Regional Mərkəzi redaksiya ilə sıx əməkdaşlıq edir. Mətbuata açıq olan bütün tədbirləri barədə redaksiyaya vaxtaşırı materiallar təqdim edir. Redaksiya yuxarıda qeyd edilən məsələlərlə bağlı regional idarənin əməkdaşlarının maarifləndirmə xarakterli yazılarını qəzetin səhifələrində dərc etməyə hazırdır.

Məsul katib redaksiyada belə bir tədbirin keçirilməsinin təşəbbüsçüsü olan FHN Şimal-Qərb Regional Mərkəzinin rəhbərliyinə təşəkkürünü bildirmişdir.

**“Qəbələ”**